2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 79 saylı müraciətə dair

# R Ə Y İ

Bakı şəhəri 14 sentyabr 2024-cü il

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 52 saylı Yevlax seçki dairəsi üzrə Respublikaçı Alternativ (REAL) Partiyasından qeydə alınmış namizəd Cəfərov Rəsul Ağahəsən oğlu 2024-cü il sentyabrın 11-də həmin seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyi və bəzi seçki məntəqələrində baş verməsi ehtimal edilən pozuntular barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət etmişdir.

Mən, ekspert qrupunun üzvü Qabil Orucov həmin müraciəti nəzərdən keçirərkən aşağıdakıları **müəyyən etdim:**

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, namizəd tərəfindən 52 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyasına 4 sentyabr 2024-cü il tarixdə elektron qaydada edilmiş müraciət qanunvericiliyin tələbinə uyğun olaraq imzalanmadığından həmin seçki dairəsinin dairə seçki komissiyası tərəfindən “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 2.6-cı bəndinə əsasən anonim hesab olunduğundan işə alınmışdır. Həmçinin bəzi seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları hissəsində şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmişdir. Bu səbəbdən də müraciət DSK-nın hərəkətsizliyi hissəsində əsassız olduğundan təmin edilməməli və bəzi seçki məntəqələrində baş verməsi ehtimal edilən qanun pozuntuları hissəsində isə geri qaytarılmalıdır.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 52 saylı Yevlax seçki dairəsi üzrə qeydə alınmış namizəd Cəfərov Rəsul Ağahəsən oğlunun 11 sentyabr 2024-cü il tarixli 79 saylı müraciəti 52 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyi hissəsində əsassız olduğundan təmin edilməsin.
2. Müraciət 52 saylı Yevlax seçki dairəsinin bəzi seçki məntəqələrində baş verməsi ehtimal edilən hissədə şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov